# Zahirəddin Məhəmməd Babur – ümumtürk mədəniyyətinin unikal hadisəsi

**Bəxtiyar Məmmədov**
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi
adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: ferhad.memmedli@mail.ru
https://orcid.org/0000-0001-5663-7834

**Annotasiya.** Klassik ədəbiyyat tarixində bir çox misilsiz simalar özünəqədərki ədəbi-bədii təcrübənin mövcud ənənələrini zənginləşdirməklə, ümumtürk əhəmiyyətinə malik olmuş və özündən sonra dərin izlər buraxmışdır. XIV-XV əsrlər Mərkəzi Asiya xalqları tarixində xüsusilə fərqlənir. Teymurilər dövründə elm və mədəniyyət müxtəlif sahələrdə inkişaf etmiş və dünyaya məşhur alimlər bəxş etmişdir. Bu dövrə mənsub şəxsiyyətlərdən biri də Zahirəddin Məhəmməd Baburdur. Şair, yazıçı, tarixçi, coğrafiyaşünas, etnoqraf, ensiklopedik zəka sahibi kimi tanınan, Böyük Türk Dövlətinin yaradıcısı Z.Babur milli-mənəvi dəyərlərə söykənən çoxşaxəli yaradıcılığı ilə şöhrət qazanmış və adını ümumtürk ədəbiyyatının parlaq səhifələrinə yazmışdır. Zahirəddin Məhəmməd Babur yaşayıb-yaratdığı qısa, lakin mənalı ömründə məşhur “Baburnamə” əsərini, şeirlərindən ibarət olan “Divan”ını, əruz, nücum və musiqiyə aid risalələrini yaratmış, lirikasında qəzəl, rübai, qitə, tuyuq, məsnəvi, mətlələr və müəmmalara əsas yer vermişdir. Zahirəddin Məhəmməd Baburun türk dilində yazılmış “Baburnamə”si ilk memuar sayılmaqla ensiklopedik əsərdir. Üç əsas hissədən ibarət “Baburnamə” təkcə, özbək ədəbiyyatı tarixində deyil, həm də dünya ədəbiyyatı tarixində xüsusi yer tutur. Türk xalqları ədəbiyyatında nəsrin parlaq nümunəsi olan “Baburnamə” elmin müxtəlif sahələrinin öyrənilməsi üçün tarixi mənbədir və məqalədə mövzunun bu istiqaməti geniş şəkildə təhlil olunmuşdur.

**Açar sözlər:** Zahirəddin Məhəmməd Babur, “Baburnamə”, ensiklopedik əsər, Teymurilər dövrü, Baburilər sülaləsi, lirik şeirlər, “Əruz haqqında traktat”

http://dx.doi.org/10.29228/edu.146
**Məqaləyə istinad:** Məmmədov B. (2020) *Zahirəddin Məhəmməd Babur – ümumtürk mədəniyyətinin unikal hadisəsi.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 86-91
**Məqalə tarixçəsi:** göndərilib – 01.06.2020; qəbul edilib – 09.06.2020

# Zahiraddin Mohammad Babur – a unique event of all-Turkish culture

**Bakhtiyar Mammadov**
Doctor of Philosophy in Philology, Institute of Literature
named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: ferhad.memmedli@mail.ru
https://orcid.org/0000-0001-5663-7834

**Abstract.** In the history of classical literature, many incomparable figures have gained all-Turkish significance by enriching the existing traditions of the previous literary and artistic practice and have left deep traces behind them. The $14^{th}$ and $15^{th}$ centuries are especially varied in the history of the nations of Central Asia. During the reign of the Timurids, science and culture developed in various fields and gave renowned scientists to the world. One of the personalities of this period is Zahiraddin Muhammad Babur. Known as a poet, writer, historian, geographer, ethnographer, encyclopedic intellectual, the founder of the Great Turkish State Z.Babur became famous for his multifaceted creativity based on national and spiritual values and wrote his name in the bright pages of all-Turkish literature. During his short but meaningful life, Zahiraddin Mohammad Babur created the famous work "Baburnama", "Divan" consisting of poems, treatises on eruz, nucum and music, and he focused on ghazals, rubai, qita, tuyug, masnavi, proverbs and mysteriesin his lyrics. Zahiraddin Mohammad Babur's "Baburname" written in Turkish is considered to be the first memoir and is an encyclopedic work. "Baburname" consisting of three main parts, has a special place not only in the history of Uzbek literature, but also in the history of world literature. Baburname, a brilliant example of prose in the literature of the Turkish peoples, is a historical source for the study of various fields of science, and this aspect of the subject is extensively analyzed in the article.
**Keywords:** Zahiraddin Mohammad Babur, “Baburname”, encyclopedic work, Timurids period, Baburis dynasty, lyrical poems, “treatise about Aruz”

http://dx.doi.org/10.29228/edu.146
**To cite this article:** Mammadov B. (2020) *Zahiraddin Mohammad Babur – a unique event of all-Turkish culture.* «Comparative Literature Studies», Issue I, pp. 86-91
**Article history:** received – 01.06.2020; accepted – 09.06.2020

## Giriş / *Introduction*

Türkdilli klassik ədəbiyyat tarixində bir çox misilsiz simalar və böyük əsərlər vardır ki, onlar özünəqədərki ədəbi-bədii təcrübənin mövcud ənənələrini zənginləşdirməklə özündən sonrakı bütün türkdilli ədəbiyyatın inkişafına ciddi təsir göstərmişdir. Bu baxımdan Zahirəddin Məhəmməd Baburun ədəbi şəxsiyyətinin və irsinin Azərbaycanda öyrənilməsini, araşdırılmasını və dilimizə uyğunlaşdırılaraq nəşr edilməsini elmi-ədəbi hadisə kimi dəyərləndirmək olar. Doğrudur, XX əsr boyunca özbək ədəbiyyatı kontekstində Nəvai irsi nisbətən geniş öyrənilmişdir. Zahirəddin Məhəmməd Babur yaradıcılığına isə klassik özbək ədəbiyyatı müstəvisində yanaşılmış, onun şəxsiyyəti və əsərləri tadqiqata cəlb olunmuş, klassik ədəbiyyat tarixindəki yeri və mövqeyi müəyyənləşdirilmişdir.

Mahmud Kaşğari (XI əsr) və onun "Divani-lüğətit-türk" əsəri, Yusif Balasağunlu (XI əsr) və onun "Qutadğu bilik" poeması, Əhməd Yəsəvi (XII əsr) və onun "Divani-hikmət"i, Yunis İmrə (XIII əsr) və onun divanı, İmadəddin Nəsimi (XIII-XIV əsrlər) və onun lirikası, Əlişir Nəvai (XV əsr) və onun "Xəmsə", "Nizamül-övzan", "Mühakimətül-lüğəteyn" kimi bir sıra əsərləri, Məhəmməd Füzuli (XVI əsr) və onun lirikası ilə bərabər, böyük özbək şairi, nasiri və alimi Zahirəddin Məhəmməd Babur (1483-1530) yaradıcılığı və onun "Baburnamə", "Risaleyi-əruz", "Xətti-Baburi" kimi bir sıra əsərləri də məhz ümumtürk əhəmiyyətinə malik nümunələr sırasına daxildir.

Mərkəzi Asiya xalqları tarixində Teymurilər dövrü (XIV-XV əsrlər) mədəniyyəti xüsusilə fərqlənir. Bu dövrdə elm və mədəniyyət müxtəlif sahələrdə inkişaf etdi, dünyada tanınan məşhur alimlər yetişdi. O dövrə mənsub həmin şəxsiyyətlərdən biri də zəngin yaradıcılıq irsi olan şair, yazıçı, tarixçi, coğrafiyaşünas, etnoqraf, ensiklopedik zəka sahibi, həm də uzaq Hindistanda Böyük Türk Dövləti qurmuş dövlət xadimi Zahirəddin Məhəmməd Baburdur. "Zahirəddin Məhəmməd Babur şəxsiyyət olaraq – bacarıqlı, qabiliyyətli, praqmatik düşüncəli siyasətçi kimi, dünya tarixində izi olan qüdrətli şəxsiyyətdir. O, üç yüz ilə qədər davam edən böyük bir imperatorluğun yaradıcısıdır. Babur və Baburoğullarının hakimiyyəti memarlıq, ədəbiyyat, fəlsəfə, din və elmin bir çox sahələrində yüksək zirvələr fəth edə bilmiş, davamlı böyük ənənələr yaratmışlar. Görkəmli dövlət xadimi Zahirəddin Məhəmməd Babur türk-özbək ədəbiyyatı tarixində Əlişir Nəvaidən sonra poeziyada uca bir məqamı kəşf etmişdir. O, poeziyanın demək olar ki, bütün janrlarında şeirlər yazmışdır. Baburun hazırlatdığı"Kabil divanı" (1519) və "Hind divanı" (152829-cu illər) dövrümüzə qədər gəlib çatmışdır" [1, s.4].

**Əsas hissə /** ***Main part***

Zahirəddin Məhəmməd Babur gəncliyində Xoca Mövlana Qazidən təlim alıb, tarix, hərb işi, musiqi və ədəbiyyata daha çox maraq göstərib. 1495-ci ildə Baburun atası Axsi Qalasında uçurumun üstündə göyərçinləri seyr edərkən müvazinətini itirir, uçuruma yuvarlanaraq yıxılıb həlak olur. 12 yaşlı Z.M.Babur Fərqanə taxtına çıxaraq hakim olur. Zahirəddin Məhəmməd Baburun taxta çıxdığı vaxt Türküstanda və ətrafında siyasi görünüş belə idi: Səmərqənddə Baburun əmisi Sultan Əhməd Mirzə, Hisarda və Bədəxşanda dayısı Sultan Mahmud Mirzə, Monqolustanda babası Yunus xan, Kabildə II Uluğ bəy Mirzə, Heratda Hüseyn Bayqara hakimiyyət başında idi. Bu dövrdə Qızılbaşlara Şah İsmayıl Xətai, özbəklərə isə Şeybani xan hökmdarlıq edirdi. "Teymurilər səltənətinin əksəriyyət qismi Şeybani xanın hakimiyyətinə tabe idi. Zahirəddin Məhəmməd Baburun mühüm siyasi məqsədlərindən biri Mavəraünnəhrdəki mübarizələr nəticəsində dağıdılmış ölkəsini bərpa etmək idi. Bu məqsədlə 1495-1496-cı illərdə Zahirəddin Məhəmməd Babur Səmərqəndi işğal edir. Elə həmin əsnada Zahirəddin Məhəmməd Baburun kiçik qardaşı Cahangir Mirzə və onun dayısı Əndicanı öz hakimiyyəti altına almaq niyyətində idi" [2, s.9]. Zahirəddin Məhəmməd Babur Səmərqənddən tezliklə çıxıb Əndicana qayıtmağa məcbur olur. O, iki illik mübarizədən sonra öz məqsədinə çatır. 1499-cu ildən 1500-cü ilədək Babur Səmərqənd şəhərinə gedib, Şeybanilərlə döyüşdü və məğlub oldu. Nəticədə Daşkənddən geri çəkilmək məcburiyyətində qaldı. 1502-1503-cü illərdə Zahirəddin Məhəmməd Babur Yunus xanın köməyi ilə Əndican üzərinə yeni bir yürüş etdi. Amma bu yürüşlər də bir nəticə vermədi və bu dəfə o, Xorasana getdi. Zahirəddin Məhəmməd Babur 1503-1504-cü illərdə Kabil və Qəznə vilayətlərinə gedib, orada öz hakimiyyətini qurdu. Səfəvilər hökmdarı Şah İsmayıl Xətainin yardımı ilə Səmərqəndə növbəti yürüşü yenə uğursuzluqla nəticələndi. 1519-cu ildən başlayaraq Babur Hindistanı fəth etməyə başladı. Nəhayət, 1526-cı ilin baharında Hindistan şahı İbrahim Ludi üzərində qələbə qazandı və Hindistanda Baburilər sülaləsinin əsasını qoydu. Zahirəddin Məhəmməd Babur 26 dekabr 1530-cu ildə vəfat edib. Onun nəşi əvvəlcə Jamna dəryasının sol tərəfində yerləşən "Nurovşan" bağının mərkəzi hissəsində dəfn edilir [3]. 1533-cü ildə Baburun öz vəsiyyətinə görə, məzarı vaxtilə Kabildə özünün saldığı "Babur bağı"na köçürülür. Kabil şəhərinin mərkəzindəki Babur məqbərəsi o dövrün ən gözəl yadigarlarından biri hesab olunur. Zahirəddin Məhəmməd Baburun

vəfatından sonra Hindistanda böyük oğlu Humayun Mirzə (1531-1556), sonra isə digər oğlu Əkbər şah (1556-1606) taxta çıxır. Bu dövr Hindistan tarixinin ən çiçəklənən və xalqlar arasında dostluğun inkişafı ilə xarakterizə olunur. Onlardan sonra məmləkəti, Babur səltənətini Cahangir Mirzə (1605-1687) və onun oğlu Şah Cahan (1628-1658) idarə edərək, ata-babalarının işlərini davam etdirirlər. Bu dövr Hindistanda elm, mədəniyyət, xüsusən, əzəmətli memarlıq abidələrinin əsasının qoyulması ilə xarakterikdir. Sultan Övrəngzibin taxta çıxdığı zaman (1659-1707) ölkə xeyli inkişaf etsə də, imperatorluğa hücumlar və təqiblər çoxaldı. XIX əsrin ortalarına qədər gəlib çatan Baburilər səltənəti yavaş-yavaş dağılmağa başladı. Artıq bu sülalənin son nümayəndəsi II Bahadur Şahın (1837-1858) hakimiyyəti formal xarakter daşıyırdı. Zahirəddin Məhəmməd Baburun əsasını qoyduğu səltənət üç əsrdən artıq davam etdi və Hindistan tarixində mühüm rol oynayan mərkəzləşdirilmiş ərazidə müstəqil bir hakimiyyət imperatorluğa çevrildi. Dövlət taxtında əyləşən hökmdarlar – Babur şah, Hümayun şah, Əkbər şah, Səlim Cahangir şah, Cahan şah, Övrəngzibin şah Babur oğulları idi. Böyük siyasi xadim və alim Cəvahirləl Nehru Z.M.Babur haqqında fikirlərini belə ifadə etmişdir: "Z.M.Babur valehedici şəxsiyyət idi, İntibah dövrünün tipik hökmdarı, cəsur, bacarıqlı insan idi, o, incəsənəti, ədəbiyyatı sevirdi, həyatdan zövq almağı xoşlayırdı. Zahirəddin Məhəmməd Baburun Hindistana gəlməsi ilə böyük tərəqqi yarandı, yeni stimullarla həyata, incəsənətə və memarlığa nəfəs verdi, mədəniyyətin digər sahələri isə qarşılıqlı təmasa keçdi" [2, s.16].

Zahirəddin Məhəmməd Babur yaşadığı qısa, lakin mənalı ömründə dünyaca məşhur "Baburnamə" əsərini, şeirlərindən ibarət olan "Divan"ını, əruz, nücum və musiqiyə aid risalələrini yazmışdır. Zahirəddin Məhəmməd Baburun özbək ədəbiyyatında, türk şeirində, lirik janrın inkişaf etməsində böyük rolu olub. Onun lirik irsi, həcmcə o qədər böyük olmasa da, mövzu dairəsi, forma, üslub, bədii gözəlliyi və mükəmməlliyi ilə xüsusilə fərqlənir. Lirikasında qəzəl, rübai, qitə, tuyuq, məsnəvi, mətlələr və müəmmalar əsas yer tutur. Onun poeziyasının mühüm məziyyətlərindən biri şeirlərinin tarixi hadisələrlə qırılmaz bağlılığında və yaşadığı dövrün hadisələrinin sadə və oxunaqlı dildə yazılmasındadır.

Türkcə yazılmış ilk memuar "Baburnamə" Zahirəddin Məhəmməd Babura dünya şöhrəti gətirmiş ensiklopedik əsərdir. Bu əsər təkcə özbək ədəbiyyatında deyil, dünya ədəbiyyatı tarixində xüsusi yer tutur. Türk xalqları nəsrinin parlaq nümunəsi olan "Baburnamə" [4; 5] eyni zamanda elmin müxtəlif sahələri üçün bənzərsiz tarixi mənbədir. Məhz bu səbəbdən dünya alimlərinin diqqətini cəlb edib. Əsərdə geniş bir coğrafi regionun – Türküstan, Əfqanıstan və Hindistan xalqlarının siyasi, ictimai, iqtisadi və mədəni həyatının səciyyəvi cəhətləri öz əksini tapıb. "Baburnamə" üç əsas hissədən ibarətdir. Birinci hissədə müəllif Mavəraünnəhr haqqında bəhs edir, 12 yaşında ikən Fərqanə vilayətinin hökmdarı olması barədə söhbət açır. Əsərdə Zahirəddin Məhəmməd Babur doğma təbiəti incə şəkildə təsvir edir, öz atası Ömər Şeyxın canlı bədii portretini yaradır, onun əcdadları, ailə həyatı, xarakteri haqqında danışır. Bu hissədə sarayın tanınmış adamları, onların fəaliyyəti tarixi faktlar əsasında şərh edilir. Kitabın ikinci hissəsi Əfqanıstanda baş vermiş hadisələrə həsr edilib. Zahirəddin Məhəmməd Baburun Kabilə gəlməsi və bu şəhəri döyüşsüz ələ keçirməsi, daha sonra tədricən öz mülklərini genişləndirməsi, itaət etmək istəməyən əfqan qəbilələri ilə mübarizəsi, onları ram etməsi və Əfqanıstanda öz dövlətini yaratması haqqında söhbət açılır. Kitabın bu hissəsindəki fəsillər böyük ustalıqla yazılıb. Müəllif əsərə maraqlı xalq rəvayətləri daxil edib və bütün bu rəvayətləri parlaq şeir nümunələri ilə şərh edərək dolğunlaşdırıb. "Baburnamə"nin üçüncü hissəsində Zahirəddin Məhəmməd Baburun Hindistandakı həyatı daha geniş, ətraflı və tam şəkildə təsvir edilib. Bu hissədə XVI əsrdə Hindistanın siyasi, ictimai vəziyyəti haqqında etnoqrafik, tarixi və təbiətşünaslıq xarakterli geniş məlumatlar təqdim edilir. Bu dahi şəxsiyyətin ədəbi-elmi irsi müasir nəsillər üçün çox böyük tarixi-idraki və tərbiyəvi əhəmiyyət kəsb edir. Zahirəddin Məhəmməd Babur əruz elminin dərin bilicisi olub. Onun qələminə mənsub olan "Əruz haqqında traktat"ı (1523-1525) bu sahədə mühüm elmi mənbədir. Müəllif əruz janrında o zamana qədər məlum olmayan şeir olçülərini taparaq, sayını 44-ə qədər müəyyənləşdirmişdir. O, əruzun 21 bəhri və xeyli sayda vəzni haqqında geniş məlumatlar verməklə bərabər, həm də türkcə və farsca nümunələr əsasında şərh etmişdir. Halbuki Zahirəddin Mə-

həmməd Babura qədər əruzun şəkil ölçüləri belə ardıcıl və dərin təhlil olunmamışdır. Zahirəddin Məhəmməd Babur şah həm də istedadlı ilahiyyat alimidir. Onun müsəlman qanunçuluğu məsələlərinə həsr edilmiş məşhur "Mubayyani" əsəri fikrimizin sübutudur.

"Zahirəddin Məhəmməd Baburun yaradıcılıq imkanları onun böyük potensiala malik olduğunu göstərir: hazırlamış olduğu "Baburun xətti" əlifbası onun zəkasının kəşfidir. 1503-1504-cü illərdə yaradılmış 29 hərfdən ibarət olan bu əlifba ərəb əlifbasının islah edilmiş şəklidir. "Baburun xətti" müxtəlif türk dillərinə aid xüsusi əlifba idi. Zahirəddin Məhəmməd Babur öz əlifbasını həyata keçirmək üçün çox səy göstərib" [6, s.51]. Məsələn, "Baburnamə"dəki bəzi parçaları, oğlanları Hindol və Kamrana həsr etdiyi qitələri bu hərflərlə yazıb. Daha sonra Bədayinin "Müntəxəbat təvarix" əsərində "Qurani-Kərim"in "Baburun xətti" əlifbası ilə köçürülüb Məkkəyə göndərildiyindən bəhs edilir" [7, s.62].

Müstəqillik dönəmi bir sıra türk xalqlarının, o cümlədən Azərbaycan və özbək xalqının keçmiş mədəni irsini tam şəkildə üzə çıxarmaq və yetərincə öyrənmək sahəsində geniş imkanlar yaratdı. Artıq öz bədii qayələri, obrazları və əsərləri ilə ümumtürk maraqlarına xidmət edən böyük simaların, eyni zamanda Zahirəddin Məhəmməd Baburun yaradıcılığını yeni tələblər və həqiqi elmi yanaşmalar əsasında tədqiq etməyə yol açdı. Zahirəddin Məhəmməd Baburun həyat və yaradıcılığı N.İ.İlminski, A.Beveric, M.F.Köprülü, H.Araslı, V.Zahidov, İ.Sultan, S.Əzimcanova, Ə.Kayumov, Ə.Həyitmetov, N.Mollayev, S.Qəniyeva, Z.Məşrəpov, İ.V.Stebleva, H.Qüdrətullayev, İ.Haqqulov, A.Ü.Binnətova, R.Əskər, F.Bayat və başqa bu kimi tanınmış şərqşünas, türkşünas, ədəbiyyatşünas və baburşünasların diqqətini cəlb etmiş, onlar bu istiqamətdə maraqlı elmi araşdırmalar, sanballı tədqiqat əsərləri yazaraq bu görkəmli şəxsiyyətin tarixi xidmətlərini və mübarizələrlə keçən ömür yolunu işıqlandırmışlar. Zahirəddin Məhəmməd Baburun çoxşaxəli fəaliyyətinin və zəngin ədəbi irsinin öyrənilməsi zaman-zaman ədəbiyyatşünaslığın və şərqşünaslığın tədqiqat predmetinə çevrilmişdir. Bununla yanaşı, klassik ənənələri və ədəbi-bədii təcrübəni yeni tələblər əsasında tədqiq etməkdə və elmi-nəzəri cəhətdən ümumiləşdirməkdə çağdaş Azərbaycan ədəbiyyatşünaslarından akademik İ.Həbibbəyli, T.Kərimli, R.Əskər, N.Cəfərov, N.Araslı, A.Ü.Binnətova, Y.Qasımbəyli, özbək ədəbiyyatşünaslarından akademik B.Nəzərov, N.Kərimov, Y.İshaqov, Ö.Narmatov, Q.Yoldaşov, H.Baltabayev, D.Quranov, B.Kərimov və başqa görkəmli alimlərin fikir və mülahizələrində də Babur yaradıcılığına dönə-dönə müraciət olunur. Zahirəddin Məhəmməd Baburun əsərləri müxtəlif illərdə özbək və Azərbaycan dillərində nəşr edilmişdir.

## Nəticə / *Conclusion*

Zahirəddin Məhəmməd Baburun yaradıcılığının araşdırılmasında "Baburnamə"yə kifayət qədər geniş yer verilir. Bunun səbəblərindən biri Baburun şah əsəri kimi onun ümumdünya şöhrəti qazanmasıdırsa, digər səbəb isə "Baburnamə"nin çoxsaylı nüsxə və tərcümələrindəki təqdirəlayiq mətləblərdir. Zahirəddin Məhəmməd Baburu "Baburnamə" kimi şah əsəri ilə yanaşı, həm də ümumtürk ədəbiyyatı və ədəbiyyatşünaslığında məşhurlaşdıran "Xətti-8 Baburi", "Mübəyyin", "Risaleyi-əruz" kimi elmi əsərləri və mütərcimlik fəaliyyətidir. Böyük Türk Dövlətinin yaradıcısı, hökmdar, şair, yazıçı, etnoqraf, coğrafiyaşünas və ensiklopedik zəka sahibi Zahirəddin Məhəmməd Babur milli-mənəvi dəyərlərə söykənən zəngin və çoxşaxəli yaradıcılığı ilə şöhrət qazanmış və adını ümumtürk ədəbiyyatının parlaq səhifələrinə yazmışdır.

## Ədəbiyyat / *References*

1. İsa Həbibbəyli. Zahirəddin Məhəmməd Babur və Azərbaycan ["Zahirəddin Məhəmməd Babur və Azərbaycan" Beynəlxalq elmi konfransın (Bakı, 20 aprel 2018-ci il) materialları" kitabına ön söz], (redaktoru və nəşrə hazırlayan fil.e.d. Almaz Ülvi ). Bakı, 2018.

2. Zahirəddin Məhəmməd Babur və XVI əsr özbək ədəbiyyatı: Əlişir Nəvai adına Dövlət Ədəbiyyatı Muzeyi ekspozisiyası əsasında qısa Məlumat kitabı ("Тошкент УзР ФА Давлат Адабиет музейи – 2008" nəşri əsasında Azəraycan dilinə tərcümə edən və nəşrə hazırlayan A.Ülvi). Bakı, 2019.
3. Zahiriddin Muhammad Bobur. Boburnoma. Toshkent, Yulduzcha, 1989.
4. Babur, Z.M. Baburnamə, cığatayca, türkcə və ruscadan tərcümə, ön sözün, qeydlər və izahların müəllifi R.Əsgər. Bakı, "Nağıl evi", 2011.
5. Babur, Z.M. Baburnamə, özbək dilindən tərcümə edən F.Bayatı. Bakı, "Avrasiya Press", 2011.
6. Ulvi, Almaz. "Boburnoma"nin Baku nusxasinin tavsifi va unda Alisher Navoyinin izlari. İlmiy toplam. Toshkent, "Bayoz" nashriyoti, 2018.
7. Ochilov, E . Barhayot siymolar. Toshkent. "O'zbekiston" nashriyoti, 2012.

## Захираддин Мухаммед Бабур – как уникальноеявление общетюркской культуры

**Бахтияр Мамедов**
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви.
Азербайджан.
E-mail: ferhad.memmedli@mail.ru

**Резюме.** В истории классической литературы многие несравненные фигуры обогатив существующие традиции предыдущей литературной и художественной практики приобрели общетюркское значениеи оставили за собой глубокие следы. XIV-XV века они особенно отличаются в истории народов Центральной Азии. Во времена правления Тимуридов наука и культура развивались в разных отраслях и принесламиру известных ученых. Одним из личностей этого периода является Захираддин Мухаммед Бабур. Известный как поэт, писатель, историк, географ, этнограф, интеллектуал энциклопедическими знаниями, основатель Великого Тюркского государства З.Бабур прославился своим многогранным творчеством, основанным на национальных и духовных ценностях, и увековечилсвое имя на ярких страницах общетюркской литературы. За свою короткую, но значимую жизнь З.М.Бабур создал знаменитую работу «Бабурнаме», состоящую из стихов «Диван», трактатов на эруз, нуджум и музыку, а в своих лирических произведенияхон сосредоточился на газелях, рубае, ките, туюге, маснави, пословицах и тайнах. «Бабур» З.М.Бабура, написанный на тюрском языке, считается первым мемуаром и энциклопедическим произведением. «Бабур-наме», состоящая из трех основных частей, занимает особое место не только в истории узбекской литературы, но и в истории мировой литературы. Блестящий пример прозы в литературе тюркских народов «Бабур-наме», является историческим источником для изучения различных областей науки, и этасторонатемы подробно анализируется в статье.
**Ключевые слова:** Захираддин Мухаммед Бабур, "Бабурнаме", энциклопедическое произведение, эпоха Тимуридов, династия Бабуридов, лирические стихи, трактат об арузе